**Struktur**

«Cenevrə Çağırışı»nın fəaliyyəti silahlı Qeyri-dövlət Aktorların minaların qadağan edilməsinə cəlb etmək, onlar tərəfindən öz öhdəliklərinin yerinə yetirilməsinə yardım etmək və bu zaman müşahidə olunan tərəqqinin monitorinqini aparmaq ətrafında cəmləşmişdir. Fəaliyyətin başqa növlərinə tərəfdarların cəlb edilməsi, təhqiqat və ictimai vəkillik aiddir.

«Cenevrə Çağırışı» PƏMQOU BK-nın himayəsi altındakı milli kampaniyalar, minalar əleyhinə məsələlər üzərində çalışan QHT-lər, alimlər, konfliktoloqlar, «Mina Monitor»u təhqiqatçıları, BMT-nin müxtəlif agentlikləri, donor-hökumətlər, hüquq üzrə ekspertlər, yardım və inkişaf agentlikləri, habelə digər yerli, regional və beynəlxalq təsisatlar ilə sıx əməkdaşlıq şəraitində işləyir.

«Cenevrə Çağırışı» şəffaf şəkildə işləmək və minaların qadağan olunması prosesinə QDA-larin cəlb edilməsinin səbəbləri və metodları haqqında beynəlxalq aləmin üzvlərini məlumatlandırmaq səylərinə böyük əhəmiyyət verir.

Könüllülərdən ibarət olan komanda «Cenevrə Çağırışı»nın əməkdaşlarına və onların tərəfdaşlarına Afrikada, Asiyada, Avropada, Latın Amerikasında və Yaxın Şərqdə proqramların yerinə yetirilməsində yardım edir.

«Cenevrə Çağırışı»nın Beynəlxalq Katibliyi Cenevre şəhərində (İsveçrə) yerləşir.